

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

23 dekabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 49 (3562)


# VƏTƏNDAŞLARIN RİFAHI DÖVLƏTİN DİQQƏT MƏRKƏZİNDƏDİR

## *Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlarla 732 min şəxsin sosial ödənişləri artırıldı*



İqtisadi tərəqqi amilinin müasir dünyada dövlətlərin gücünü şərtləndirən başlıca amil olduğunu düzgün müəyyənləşdirən Prezident İlham Əliyevin iqtisadi modernləşmə siyasəti innovativ bilik iqtisadiyyatının formalaşmasına, insan amilinin önə çəkilməsinə və səmərəli sosial modelin tətbiqinə imkan yaradıb. Yeni iqtisadi şəraitdə sistemli islahatların böyük əzm və qətiyyətlə həyata keçirilməsi Azərbaycanı qarşıya qoyulmuş hədəfə - dünyanın inkişaf etmiş ölkələrindən birinə çevrilmək məqsədinə doğru inamla aparmaqdadır.

Qazandığımız tarixi Zəfərdən sonra yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan pandemiyanın doğurduğu çətinliklərə rəğmən 2021-ci ili ciddi sosial-iqtisadi inkişaf göstəriciləri ilə başa vurur. Təsadüfi deyildir ki, respublikamızın iqtisadi tərəqqinin davamlılığını təmin edən milli inkişaf modelinə dünya miqyasında da ciddi maraq göstərilir.

Ötən 18 ildə Prezident İlham Əliyevin təsdiq etdiyi 50-yə yaxın dövlət proqramı ölkə həyatının müxtəlif sahələrində islahatların əsasını qoymaqla, inkişaf prosesində ahəngdarlığı, yüksək dinamizmi təmin edib, ölkənin mövcud resursları keçid dövrü üçün səciyyəvi problemlərin aradan qaldırılmasına yönəlib. İnkişaf, sosial təminat və infrastrukturyönümlü layihələr, ilk növbədə, hər bir vətəndaşın layiqli həyat tərzinin təminatına, dövlət idarəçiliyinin çevik mexanizmlər əsasında həyata keçirilməsinə, bir sözlə, vətəndaş məmnunluğuna hesablanıb.

Ölkədə əhalinin rifahına xidmət edən sosial islahatların yeni mərhələsinə başlayan Prezident İlham Əliyevin cari il dekabrın 20-də imzaladığı bir sıra fərman və sərəncamlar da bunun bariz nümunəsidir.

Bu sənədlərə əsasən həyata keçiriləcək tədbirlər əhalinin həssas qruplarına yönələn sosial ödənişlərin artırılmasının xüsusilə son illərdə geniş miqyas aldığının bir daha təsdiqidir.

Yeni fərman və sərəncamlarla müavinət və təqaüd artımı əlilliyi olan şəxslər və I dərəcə əlilliyi olan şəxslərə qulluq edənlər, sağlamlıq imkanları məhdud uşaqlar və onlara qulluq edənlər, yaşa görə müavinət alanlar, ailə başçısını itirməyə görə müavinət alanlar, müddətli hərbi xidmətdə olanların uşaqları, uşaqların qəyyumları əhatə edilir. Sözügedən sənədlər eləcə də beşdən çox uşağı olan qadınlara, bir yaşadək uşağı olan (ünvanlı sosial yardım alan) aztəminatlı ailələrə, övladlığa uşaq götürənlərə, işləməyən pensiyaçı elmlər və fəlsəfə doktorlarına, "Xalq" və "Əməkdar" fəxri adı olanlara, həmçinin doktorant və tələbələrə aiddir.

Beləliklə, dövlət başçısının yeni fərman və sərəncamları əlilliyi olan şəxslər və digər kateqoriyalardan ibarət ümumilikdə 732 min şəxsi, o cümlədən 132 min doktorant və tələbəni əhatə edərək müavinət və təqaüd formasında onlara yönələn sosial ödənişlərin gələn ilin əvvəlindən artırılmasını təmin edir.

# PREZİDENT TÜRKİYƏLİ VƏ GÜRCÜSTANLI NAZİRLƏRİ QƏBUL EDİB

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 21-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməzi və Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladzeni qəbul edib.

Türkiyəli nazirə Bakıda keçiriləcək Azərbaycan-Türkiyə 1-ci Enerji Forumunun ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın genişləndirilməsi, yeni istiqamətlərin müəyyənləşdirilməsi, konkret layihələrin müzakirəsi üçün yeni bir platforma olduğu bildirilib.

Gürcüstanlı nazirlə görüşdə isə ölkələr arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə daim inkişaf etdiyi vurğulanıb, ikitərəfli dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində inkişafından məmnunluq ifadə olunub.

# ETİBARI VƏ İNAMI DOĞRULDACAQLAR...

## *Cari ildə 573 nəfər Vətən Müharibəsinin iştirakçısı və şəhid ailələrinin üzvləri polis orqanlarında xidmətə qəbul olunub*



Dekabrın 16-da daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştiraki ilə respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışı keçirilib.

Sıra baxışında kütləvi informasiya vasitələrində, o cümlədən Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində verilmiş elana uyğun olaraq Nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 337 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 90 nəfəri Vətən Müharibəsinin iştirakçıları və şəhid ailələrinin üzvləri olub.

Ümumilikdə isə il ərzində daxili işlər orqanlarında xidmətə qəbul edilən gənclərdən 573 nəfəri torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş şəxslər və şəhid ailələrinin üzvləri olub.



Nazir V.Eyvazov xidmətə qəbul ediləcək gəncləri qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edərək onlara polis adını və şərəfini daim uca tutmalarını, müasir informasiya texnologiyalarının sirlərinə yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, onlarla ünsiyyətdə, rəftarda hər zaman yüksək mədəniyyət və təmkinlik nümayiş etdirmələrini, ədalətli, obyektiv və dürüst olmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

# “ƏSGƏR” qəzetinə, SƏNGƏR QƏZETİNƏ TƏBRİK

O, səngər qəzetlərindəndir. Hələ də səhifələrindən barıt qoxusu gəlir. Döyüşə-döyüşə illəri yola salıb. Sükanı etibarlı, həm də sözün kəsərini, gücünü bilənlərin əllərində olduğundan əsgər kimi ayıq-sayıq olub. Sinəsini geniş açıb həmişə qələbə soraqlı xəbərlərə. Şuşa dərdini, Laçın yarasını, Kəlbəcər ağrısını, Xocalı zülmünü, bir sözlə, yurd-yuva həsrətini misra-misra, cümlə-cümlə öyrədib ana qoynunun istisindən, ata əlinin tumarından ayrılıb səngərdə Vətəni qorumaq üçün düşmənlə üzbəüz, nəfəs-nəfəsə dayanan oğullara.



Onun nəşri əlamətdar hadisə idi. Unudulmadıqlarını, arxa cəbhənin yerində möhkəm durduğunu xatırladırdı döyüşən Vətən sevdalılarına. Bayrağımızın sancıldığı zirvəyə, azad olunmuş bir qarış torpağa belə “Əsgər” ayaq açırdı. Onu sevə-sevə oxuyurdular. Dilimizin, ideoloji xəttimizin qoruqçusu kimi imkan verməmişdi ki, siyasi təlatümlər, vəzifəyə gəlmək uğrundakı çəkişmələr, satanlar və ya satılmışlar səngərə ayaq açsın. “Əsgər”çilər bilirdilər ki, əgər bunlar olsa, əsgər səngərdə duruş gətirə bilməz, silahı sözünə baxmaz, nizam-intizam pozular və bəla qapını döyər.

“Əsgər”i ərsəyə gətirənlərin də qeyd etdiyi kimi onların etibar etdiyi, inandığı mənbə də elə səngərdə dayanan əsgərlər idi.

Daxili Qoşunların deyil, Azərbaycan ordusunun keçdiyi döyüş yolunun şahidi olan bu qəzet dünən olduğu kimi, bu gün də hərbi-vətənpərvərlik ideyasına sadiq qalır. Bu gün də o, sevə-sevə oxunur, rəngarəng mövzuları ilə göz oxşayır. Keçmişə güzgü tutmaqla “heç kim unudulmur, heç kim yaddan çıxmır” ənənəsinə sadiqliyini bir daha nümayiş etdirir.

İkinci Qarabağ savaşında da qəzet arzusunda olduğu, bəlkə də illərlə qələbə sorağı eşitmək istədiyi səngərlərdə əl-əl gəzdi. Neçə-neçə gəncin ruhuna qol-qanad verdi. Otuz illik həsrətə son qoyan 44 günlük müharibənin qələbə xəbərini manşetinə çıxardı. Şəhid xəbərlərinin ağrısına büründü, əlini, ayağını itirənləri yıxılmağa qoymadı, şəhid analarına, qazilərə “Vətən sağ olsun!” nidası ilə üzünü tutub səbr dilədi.

Yeni yaşın mübarək, əziz “Əsgər”imiz. Və qələmi süngüyə çevirən “Əsgər”çilər, zehniniz iti, sözünüz kəsərli olsun. Yazdıqlarınızın bir tarix olduğunu unutmayın. Vətən varsa, əsgər də, döyüşən oğullar da hər zaman olacaq. Odur ki, irəli, Azərbaycan “Əsgər”i.

*Hafiz Təmirov,*
*polis polkovnik-leytenantı*

# Uşaqların gözü ilə...

## Məktəblilər yol hərəkəti qaydalarını kətana köçürüblər



Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin keçirdiyi “Yol hərəkəti qaydaları uşaqların gözü ilə” adlı rəsm müsabiqəsi başa çatıb.



Müsabiqə “Azərbaycan Respublikasında yol hərəkəti təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı” çərçivəsində uşaq və yeniyetmələr arasında yol hərəkəti təhlükəsizliyinə dair bilik və vərdişlərin inkişaf etdirilməsi, onların yol hərəkəti qaydaları haqqında biliklərinin artırılması, bu istiqamətdə ictimai həmrəyliyə nail olmaq məqsədilə keçirilib.




Baş Dövlət Yol Polisi İdarəsindən bildirilib ki, sözügedən müsabiqəyə respublikanın 43 şəhər və rayonundan 335 rəsm əsəri təqdim edilib. Rəsmlər tam şəffaf şəkildə mütəxəssislər tərəfindən qiymətləndirilib və birinci yeri Sumqayıt şəhər 1 nömrəli UGİM-in dərnək üzvü Nərgiz Qasımova qazanıb. Hazırda respublikanın digər regionlarında müsabiqədə ikinci və üçüncü yerləri tutan qaliblərin və fəal iştirakçıların mükafatlandırılması mərasimi keçirilir. Tezliklə həmin tədbirlər barədə daha ətraflı məlumat paylaşılacaq.

Müsabiqəyə qatılaraq fərqlənən məktəblilər **DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalov** tərəfindən təşəkkürnamə ilə təltif olunub, eləcə də tədbirin keçirilməsində fəallıq göstərmiş qurum rəhbərləri və müəllimlər mükafatlandırılıblar.

Şəhər və Rayon Polis şöbələrinin əməkdaşları müsabiqədə fərqlənən məktəblilərlə görüşərək, onları təbrik edib, təhsillərində uğurlar arzulayıb, mükafatlarını təqdim ediblər.

Görüşlər zamanı uşaq və yeniyetmələrin yol hərəkəti qaydaları haqqında biliklərinin artırılmasında belə tədbirlərin əhəmiyyəti yüksək qiymətləndirilib, müsabiqənin təşkilatçılarına minnətdarlıq ifadə olunub.

*“Polis”*

# DAXİLİ İŞLƏR NAZİRİ AZƏRBAYCAN ATICILIQ FEDERASİYASININ PREZİDENTİ SEÇİLİB

Dekabrın 15-də Gənclər və İdman Nazirliyinin inzibati binasında Azərbaycan Atıcılıq Federasiyasının hesabat-seçki konfransı keçirilib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra nazir Fərid Qayıbov çıxış edərək tədbir iştirakçılarını salamlayıb, konfransın işinə uğurlar arzulayıb.

Sonra Azərbaycan Atıcılıq Federasiyasının baş katibi Emin Cəfərov federasiyanın son illərdəki fəaliyyəti barədə hesabat məruzəsi ilə çıxış edib.

Daha sonra federasiya rəhbərliyinə yeni seçkilər keçirilib. Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov səsvermə nəticəsində Azərbaycan Atıcılıq Federasiyasının yeni prezidenti seçilib.

Konfransda, həmçinin İsmət Əliyev və Zemfira Meftaxətdinova federasiyanın vitse-prezidentləri, Ruslan Lunyov, Aynur Cəfərova, Əli Hüseynli və Rəsul Məmmədov isə İdarə Heyətinə üzv seçiliblər.

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edib.

Federasiyanın yeni prezidenti Vilayət Eyvazov çıxış edərək göstərilən etimada görə təşəkkürünü bildirib. V.Eyvazov idmanın bu növünün inkişafı üçün əlindən gələni edəcəyini, bunun üçün mütəxəssislərin rəy və təkliflərinin xüsusilə diqqətə alınacağını vurğulayıb.

# GENERAL KAMİL MƏMMƏDOV

## İllər sonra doğma torpaqları azad görmək ona da nəsib oldu



***Ömrünün ən məhsuldar dövrünü daxili işlər orqanlarında keçirən hörmətli veteranımız, istefada olan polis general-mayoru Kamil Məmmədovun 90 yaşı tamam oldu.***

Gənc yaşlarından xidmətdə fərqlənən, yüksək idarəçilik qabiliyyəti, peşəkarlığı sayəsində hələ ulu öndərimizin ölkəmizə rəhbərlik etdiyi sovet dönəmində məsul vəzifələrdə çalışan general Kamil Məmmədov bütövlükdə, xidmət etdiyi 35 ildə ictimai asayişin, sabitliyin qorunması, cinayətkarlıqla mübarizə işinə öz töhfəsini verib, bu illərdə yüzlərlə əməkdaşın yetişməsində əlindən gələni əsirgəməyib. İnsanlarla dil tapmaq, ünsiyyət qurmaq bacarığı hər zaman köməyinə çatıb, dadına yetib. Təmizliyi, dürüstlüyü sayəsində xidmət yolu onu nazir müavini kimi yüksək vəzifəyə qədər gətirib çıxarıb.

Təqaüdə çıxdıqdan sonra da şəxsi heyətin hərbi-vətənpərvərlik tərbiyəsində və peşəkarlığının artırılmasındakı vətənpərvər fəaliyyəti ölkə və DİN rəhbərliyi tərəfindən çox yüksək qiymətləndirilir...

O, indi DİN-də çalışmır, vəzifə sahibi deyil, təsir edəcək qədər səlahiyyətləri sovetlər dönəmində qalıb, bəs insanları vadar edən nədir ki, bu şəxs haqqında həmişə ağızdolusu, özü də ürəklə danışırlar.

Cavab çox sadədir, çünki verdiyi sözə əməl etmək, “Kişi sözü”nə sayğı Kamil müəllimin fitrətindədir. Onu tanıyanlar da, tanımayanlar da sevə-sevə “Kamil Məmmədovdan yoxdur”, “O, əsl dostdur”, “Kişi adamdı, sərt, tələbkar, ədalətli, hədəfi bəlli, sözünün ağasıdır” deyirlər.

Kamil müəllimə ən yüksək qiyməti isə möhtərəm Prezidentimiz verib. Bir neçə il öncə hörmətli generalımızın hüquq mühafizə orqanlarında səmərəli fəaliyyətinə görə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi tarixi hadisə idi.

Yeri gəlmişkən, daxili işlər orqanlarının rəhbər vəzifələrində uzun illər qüsursuz və səmərəli fəaliyyətini, polis orqanlarının ictimai həyatında daim fəal iştirakını, gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında xidmətlərini nəzərə alaraq, habelə anadan olmasının 90 illik yubileyi münasibətilə daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmri ilə qocaman həmkarımız “Fəxri fərman”la təltif olunub.

Bir mətləbi də oxucularımızın diqqətinə çatdırmaq istəyirik. Qəhrəmanımız haqqında daha çox məlumat almaq istəyirsinizsə, ömür yolundan bəhs edən "General Kamil Məmmədov" kitabını tapın, oxuyun.

Ürəyində hələ deyiləsi sözü, həyata keçirməyə çalışdığı arzusu çoxdu. 90-nı haqladı, 100-ə nə qalıb ki...

*“Polis”*

# VƏTƏNDAŞ MƏMNUNLUĞU ÜÇÜN...

## Peşə etikası, ünsiyyət qurmaq bacarığı xidmətin təməl prinsiplərindəndir

**“Vətəndaşların müraciətlərinə həssaslıqla yanaşmaq, operativ reaksiya vermək, üzləşdikləri problemlərin həll olunmasında köməklik göstərmək polis əməkdaşlarının həm vəzifə borcudur, həm də qarşımızda qoyulan tələblərdir.”**

Bu fikirləri **Nərimanov RPİ 18-ci Polis Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Bayram Alıyev** söhbət əsnasında diqqətimizə çatdırdı.




“İctimai sabitliyin, təhlükəsizliyin qorunub-saxlanılması, eləcə də vətəndaş məmnunluğunu təmin etmək üçün onlar daima xidmətdədirlər. Yaşadığımız ərazidə sakinlər şöbənin fəaliyyətindən razıdırlar. Aidiyyəti olmasa belə problemimizin həllində polis köməyimizə çatır”,-deyən və narkomaniyaya qarşı qətiyyətli mübarizəyə görə polis əməkdaşlarına təşəkkürünü yazan vətəndaş Kamran Məstənovun məktubu şöbənin fəaliyyəti ilə bağlı deyilənlərdə bələdçimiz oldu. Son dövrlər narkotiklərin, psixotrop maddələrin, eləcə də onların prekursorlarının qanunsuz dövriyyəsinin, həmçinin istifadəçilərinin sayının sürətlə artmasının ciddi narahatlıq doğurduğunu, cinayətkarlıqla mübarizədə bu sahəni önə çıxardığını ifadə edən şöbə rəisi bildirdi ki, təhkim olunmuş ərazidə “ağ ölüm”ə qarşı mübarizə tədbirləri İdarə rəisinin xüsusi nəzarəti altında həyata keçirilir. Baş verən cinayətlərə gəlincə, statistikaya nəzər yetirsək, onları ya narkotik vasitələri əldə etmək məqsədilə, ya da onun təsiri altında törədildiyinin şahidi oluruq. Bununla bağlı dövlətin bütün qurumları səfərbər olsa da bəlanın yayılmaqda davam etdiyini, onun ailəvi qırğın silahı kimi bütün yaş həddlərində hər kəsi özündən asılı salmaq gücünə sahib olduğunu ürək ağrısı ilə qeyd edən polis polkovnik-leytenantı B.Alıyev narkomaniyaya qarşı mübarizə tədbirlərində fəallıqları ilə seçilən şöbə əməkdaşlarından **baş əməliyyat müvəkkili, polis mayoru Ruslan Səfərovun, əməliyyat müvəkkilləri, polis kapitanı Rəşad Qasımovun, polis baş leytenantı Amiq Rəhimlinin və sahə rəisi, polis mayoru Müşfiq Süleymanovun** adlarını da vurğuladı.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Yeni inzibati bina istifadəyə verildi

**DİN Xaçmaz Rayon Mühafizə Şöbəsinin yeni inzibati binasının açılışı olub.**



Tədbirdə Baş Mühafizə İdarəsinin rəisi, polis general-mayoru Nurullah Məmmədxanlı, Xaçmaz RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Həmid Həsənov, Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev və digər rəsmi qonaqlar iştirak ediblər.




Məlumat verilib ki, iki mərtəbəli inzibati binada Növbətçi hissə və digər xidməti otaqlar ən müasir standartlara uyğun zəruri avadanlıq, inventar, o cümlədən kommunikasiyalarla təchiz edilib. Yeni tikilidə 54 yerlik akt zalı da şəxsi heyətin istifadəsinə verilib. Binada ventilyasiya, mərkəzi istilik sistemi, qazanxana, rabitə-kommunikasiya və elektrik xətləri quraşdırılıb, digər yardımçı sahələr yaradılıb. Ərazi hasarlanıb, abadlaşdırma, yaşıllaşdırma və xarici işıqlandırma işləri yerinə yetirilib.

Mərasimdə çıxış edən **BMİ-nin rəisi, polis general-mayoru N.Məmmədxanlı** yeni inzibati binanın şəxsi heyətə əsl bayram hədiyyəsi olduğunu deyərək onların bundan sonra da xidmətdə ayıq-sayıq dayanacaqlarına, göstərilən etimadı doğruldacaqlarına, eləcə də DİN rəhbərliyinin diqqət və qayğısına öz layiqli fəaliyyətləri ilə cavab verəcəklərinə əminliyini ifadə edib.

Sonra tədbir iştirakçıları binanın ikinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətini, Prezident, Ali Baş Komandan İlham Əliyevin daxili və xarici siyasət sahəsində əldə etdiyi uğurları, eyni zamanda daxili işlər orqanlarına göstərdiyi xüsusi diqqət və qayğını əks etdirən fotostendlərə baxıblar.

*Xəyal Talıbov,*
*polis leytenantı*

# BÜRÜNC UĞUR

## *Əməkdaşımız ölkəmizi Dünya Kuboku uğrunda keçirilən yarışda təmsil edib*




Bugünlərdə Rusiyanın Nijnevartovsk şəhərində boksçulardan ibarət milli komandalar arasında Neft Ölkələrinin Dünya Kuboku uğrunda yarış keçirilib. Mundialda DİN-in əməkdaşı da gücünü sınayıb.

Millimizin heyətində Daxili İşlər Nazirliyinin Komendant Xidmətinin polis nəfəri, polis serjantı Eldar Quliyev çıxış edib. Rinqə 86 kiloqram çəki dərəcəsində çıxan dəri əlcəkli həmkarımız ilk mərhələdə Tacikistanın Asiya Oyunlarının çempionu olmuş boksçusunu məğlub edib. Digər mərhələdə rusiyalı idmançını yarışdan uzaqlaşdıran E.Quliyev yarımfinala qədər yüksəlib. Bundan sonrakı görüşdə isə məğlub olub və bürünc medal qazanıb.

DİN-in əməkdaşı diplom, medal və kubokla təltif edilib.

# GƏNCLİK VƏ GƏLƏCƏK NAMİNƏ!

## *Şagirdlərin qonağı yenə polislər oldu*

***Paytaxt və bölgələrdə polis əməkdaşları gəncləri maarifləndirmək məqsədilə “Narkomaniyaya yox deyirik!” mövzusunda maarifləndirici görüşləri davam etdirirlər.***

Nizami rayonundakı 109 nömrəli orta məktəbdə Rayon Polis İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə idarənin əməkdaşları, rayon icra hakimiyyətinin nümayəndəsi, polis veteranları, müəllim və valideynlər iştirak edib.





**Nizami RPİ-nin rəisi, polis polkovniki Ziya Əliyev** çıxış edərək insanların həyat və sağlamlıqlarına ciddi təhlükə yaradan, cinayətkarlığın artmasına təkan verən narkomaniya barədə geniş məlumat verib, dünyaya yayılan bu bəlanın bəşəriyyət üçün ciddi fəsadlar törətdiyini diqqətə çatdırıb.



Tədbirdə həmçinin, Bakı Şəhər Baş Polis İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova internet vasitəsilə zərərli vərdişlərin, o cümlədən narkotikin təbliği, 24-cü PB-nin inspektoru, polis baş leytenantı Xədicə Hüseynova isə erkən nikahın hüquqi-sosial problemləri mövzusunda çıxış ediblər.

Zərdab rayonunda keçirilən tədbirdə çıxış edən **Rayon Polis Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Azər Əfəndiyev** və digər şəxslər narkomaniya və digər zərərli vərdişlərin insan sağlamlığına vurduğu zərərlər, cəmiyyətdə yaratdığı sosial bəlalar haqqında iştirakçılara ətraflı məlumat veriblər, məktəblilərin sualları cavablandırılıb.

Astara rayonunun Artupa kənd tam orta məktəbində keçirilən maarifləndirici görüşdə **RPŞ-nin rəisi, polis polkovniki Azər Cəfərov** və tədbirin digər iştirakçıları narkomaniyanın səbəb olduğu ağır fəsadlardan, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı polisin apardığı qətiyyətli mübarizədən və əldə olunan nəticələrdən danışıblar.

Masallının Qızılavar kənd tam orta məktəbində “Narkomaniyaya yox deyək!” mövzusunda keçirilən görüşdə **RPŞ-nin rəis müavini, polis polkovnik-leytenantı Elvin Əzimov, Saatlı rayonunun 4 saylı tam orta məktəbində RPŞ-nin rəisi, polis polkovniki Azər Tağıyev** məktəblilərə narkotik vasitələrin zərərlərindən, insan və cəmiyyət üçün yaratdığı problemlərdən danışıblar. Şöbə rəisləri ölkənin bütün ərazisində olduğu kimi, bu rayonlarda da narkotik maddələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərə qarşı qətiyyətli tədbirlər görüldüyünü və cinayət əməli ilə məşğul olan hər bir şəxsin tutularaq məsuliyyətə cəlb edildiyini tədbir iştirakçılarının diqqətinə çatdırıblar.

Maarifləndirici tədbirlər **Yevlax, Xətai Şəki, Xaçmaz, Neftçala və Goranboy** rayonlarındakı tam orta məktəblərdə də keçirilib.

*“Polis”*

# ONLAR DA ÖN CƏBHƏDƏDİRLƏR

## *Sağlamlığın keşiyində dayanmaq çətin, lakin şərəflidir*

**Cəmiyyəti canlı bir orqanizmə bənzətsək, cinayətkarları xəstəlik “daşıyıcıları” kimi ifadə edə bilərik. Bu zaman isə polislər xəyalımızda istər-istəməz xəstəliklə mübarizə aparan həkim obrazında canlanar. Ancaq sıralarımızda elə həmkarlarımız var ki, onlar haqqında danışarkən heç obrazlaşdırmağa gərək qalmır. Çünki həm polis mundiri, həm də ağ xalatları onları iki cəbhədə “vuruşan” gerçək qəhrəmana çevirir.**






Çox güman, diqqətli oxucu söhbətin “paqon”lu həkimlərdən, tibb xidmətinin əməkdaşlarından getdiyini ilk sətirlərdən anladı. Odur ki, sözü çox uzatmadan, Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan Bərdə Regional Həkim-Ambulatoriyasının son dövrlərdəki fəaliyyətinə nəzər salaq.

Əvvəlcə, onu qeyd edək ki, bölgədəki bir sıra polis şöbəsinin şəxsi heyəti həkim-ambulatoriyanın rəisi, polis polkovnik-leytenantı Həbib Məmmədovun rəhbərliyi ilə vaksinasiya olunublar. Artıq üçüncü dozalar vurulur. Əməkdaşların sağlamlıqlarının qorunması və xidmətin səmərəli təşkili məqsədilə hələ aprel və may aylarından başlayaraq Bərdə, Yevlax və Tərtər rayonlarının polis şöbələrində peyvədlənməni regional tibb heyəti aparıb. Daxili Qoşunların bölgədəki hərbi hissələrində də DİN rəhbərliyinin müvafiq göstərişi ilə hərbçilərin peyvəndlənməsi həyata keçirilib.

Vaksinlərin vurulmasında şəxsən iştirak edən ambulatoriya rəisinin sözlərinə görə, tibb heyətinin pandemiya ilə mübarizəyə qoşulması ilə həmin rayonlara ayrıca həkim briqadası göndərilməsinə ehtiyac qalmayıb. Məhz bu fəaliyyətinə görə Bərdə Regional Həkim-Ambulatoriyası başqa regional qurumlardan fərqlənir.

Vətən müharibəsi ilə azadlığına qovuşan torpaqlarımızda xidmət edən əməkdaşlarımıza peşəkar tibbi xidmət göstərilməsi, lazımi preparatlarla təmin olunması da regional qurum tərəfindən diqqət mərkəzində saxlanılır. Bugünlərdə işğaldan azad olunan rayonlardakı daha 6 posta təcili tibbi yardım ləvazimatları, dərmanlar çatdırılıb. Daha öncə isə Ağdam və Şuşa şəhərində Vətən torpaqlarının keşiyini çəkən polis əməkdaşlarına zəruri ləvazimatlar verilib.

Regional xidmətin fəaliyyəti bununla da yekunlaşmır. Narkomaniya bəlasına qarşı təhsil müəssisələrində keçirilən maarifləndirici görüşlərdə həm həkim, həm də polis əməkdaşı kimi çıxış edən H.Məmmədov narkomaniyanın digər cinayətlərə rəvac verməklə yanaşı, QİÇS kimi ağır xəstəliklərin sürətlə yayılmasını stimullaşdırdığını, ailə dəyərlərinin məhvinə, mənəvi deqradasiyaya səbəb olduğunu gənclərə izah edir. Regional qurumun tibb heyəti Ağcabədi, Ağdam və Bərdədəki məktəblərdə, kolleclərdə bu qəbildən keçirilən görüşdə mütəmadi iştirak edir.

# Müavinlər təlimə cəlb edilib

## *Təlim profilaktik tədbirlərin gücləndirilməsinə həsr olunub*



Respublika üzrə rayon polis şöbələrinin xidmət üzrə rəis müavinləri 16-18 dekabr tarixlərində ixtisasartırma kurslarına cəlb olunublar. İyirmi altı əməkdaşın qatıldığı iki günlük təlim Bakı Şəhər Baş Polis İdarəsinin İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları tərəfindən keçirilib.

Bakı şəhər BPİ-dən “Polis”ə verilən məlumata görə, Baş İdarədə ilk gündə hüquq pozuntusu törədən və törətməyə meyili yetkinlik yaşına çatmayanların, eləcə də sosial təhlükəli vəziyyətdə olan ailələrin ətrafında aparılan profilaktik tədbirlərin gücləndirilməsində polisin fəaliyyəti müzakirə olunub.

DİN -in Polis Akademiyasında keçirilən təlimin ikinci günündə isə yetkinlik yaşına çatmayanların işləri üzrə digər xidmət sahələri, habelə dövlət və qeyri-hökumət təşkilatları ilə əlaqəli işin təşkil edilib həyata keçirilməsi mövzularında mühazirələr oxunub.

*R.Mehtiyev*

# Mübarizə birlikdə daha səmərəlidir



Polis cinayətkarlıqla və narkotiklərlə mübarizənin ön sırasındadır. Görülən işə, aparılan qətiyyətli mübarizəyə cəmiyyət də biganəlik nümayiş etdirmir və baxçadan ali məktəblərə qədər çalınan həyəcan təbili hər birimizi xilaskar olmağa səsləyir. Unutmayaq ki, şəxsiyyətlərin, dəyərlərin dəqradasiyası gələcək üçün gözəl heç nə vəd etmədiyindən kütlə təfəkkürü ilə mübarizə aparmaq sonu görünməyən faciələrə yol aça bilər.

Zaman göstərdi ki, dövlətin gəncliyi qorumaq uğrundakı mübarizəsinin alt qatında həm də illərlə düşmən tapdağında qalan torpaqların xilas yolunu tezləşdirmək ideyası aparıcı xətt idi. Və bu baş verdi, zərərli vərdişlərlə, xüsusən də narkomaniya ilə mübarizə Mübarizləri, Poladları, Şıxəmirləri, Xudayarları yetişdirdi. Sağlam gəncliklə biz itirdiklərimizi, torpaqlarımızı geri qaytardıq.

Nəticə əldə edirik. Keçirilən görüşlər, maairfləndirici tədbirlər sabaha ümid yaradır. Elə bir neçə gün öncə M.Rəhim adına 7 saylı orta məktəbdə keçirilən tədbir haqqında təəssüratlarını yazıb göndərən 9-cu sinif şagirdi Səbinə Cənnətovanın məktubu gücümüzə güc qatıb bizi daha böyük əzmlə mübarizəni davam etdirməyə stimul verir.

***"POLİS"in REDAKSİYASINDAN***

**Səbinə yazır:** "Bir neçə gün öncə M.Rəhim adına 7 saylı orta məktəbdə keçirilmiş tədbir haqqında fikirlərimi bölüşmək istəyirəm. Bu, həm də bizim üçün ən yaddaqalan hadisələrdən biri oldu. Tədbirdə 6-cı və 9-cu sinif şagirdləri iştirak edirdilər. Qonaqlarımız "Polis" qəzetinin redaktoru, polis polkovnik-leytenantı Hafiz Təmirov, İctimai Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin rəhbəri Samir Adıgözəlli, Mərkəzin üzvləri Adilya Yaqubova, Natiq Bədəlov, Yasəman Möhübbətqızı, Sima Babayeva və Səbail Rayon Polis İdarəsinin əməkdaşı, polis kapitanı Samuray Abbasov idi. Tədbirin mövzusu sadə, eyni zamanda ölümcül təhlükəli idi - Narkotik. Sözün düzü, belə bir ciddi mövzunun bizə başa düşəcəyimiz şəkildə, hətta maraqlı yanaşma ilə izah edilməsi hər birimizin marağına səbəb oldu.

Tədbir iştirakçıları əvvəlcə bizə ölkəmizdə narkomaniya ilə bağlı vəziyyəti izah edib statistik məlumatları diqqətimizə çatdırdılar. Danışan rəqəmlər və faktlar bizi heyrətləndirmişdi. Deməli, gələcəyimizi sağlam görmək istəyiriksə birinci özümüzdən başlamalıyıq, yəni həm maariflənməli, həm də maarifləndirməliyik.

Bizə təkcə narkotikin zərərindən deyil, həm də insan həyatı üçün təhlükəsi barədə izah verdilər. Narkotikin təsirindən insan həm də dəli olmaq təhlükəsi ilə üzləşə bilər. Axı, narkotikdən asılı bir insanın düşüncəsində bir prinsip var, o da qısa müddətli xoşbəxtliyin yeni dozasını necə əldə etməkdir.

Tədbir ürəyimizcə oldu, qonaqlar bizə həyatda yalnız dürüst və çalışqan bir yolla irəliləməyə davam etməyi tövsiyə etdilər.

Yuxarıda adları çəkilən şəxslərin məktəbimizə gələrək bizi məlumatlandırdıqlarına, eyni zamanda öz hiss və emosiyalarımızı ifadə etməkdə sərbəst olduğumuzu bizə yenidən xatırlatdıqlarına görə minnətdarlığımı bildirirəm".

# Detektor - poliqraf

## *O yalançıya şahidlik etmir*

Mütəxəssislər deyir ki, cinayətkarlar əməllərini ört-basdır etmək üçün yalana daha çox sığınırlar. Amma bu zaman onların hərəkətləri, danışıqları, həqiqəti biruzə verir. Bəzi ölkələrin hüquq mühafizə orqanları cinayətkarın gizlətdiyi informasiyanı müəyyən etməkdən ötrü poliqrafdan - yalan detektorundan istifadə edirlər.

Poliqraf aparatının yaranmasının çox maraqlı tarixçəsi var.

Cinayətlərin araşdırılması üçün ilk poliqraf 1921-ci ildə ABŞ-da polis məmuru John Larsen tərəfindən yaradılıb. Bu cihaz nəbz, təzyiq və tənəffüs ritmindəki dəyişiklikləri qeyd edirdi. 1930-cu ildə Leonard Killer müəllimi Con Larsonun icad etdiyi cihazı təkmilləşdirərək öz fərdi metodikasını yaradıb.

Poliqrafiya mütəxəssisi sorğu–sual



zamanı dərinin müqavimətinin dəyişməsini, qan damarlarındakı qan hüceyrələrinin sıxlığının ölçülməsini, qan təzyiqini, tənəffüs reaksiyalarını "oxumaqla" həqiqəti üzə çıxarmağa çalışır.

1935-ci ildə Viskonsin polisi iki şübhəli şəxsi həbs edir. Onlar şerifi öldürməkdə ittiham olunurdular. Ancaq kifayət qədər dəlil olmadığından, prokuror işi məhkəməyə göndərməkdən imtina edir və istintaqda olanlardan yalan detektoru testindən keçmələrini təklif edir. Cinayətkarlar elektron maşını asanlıqla aldadacaqlarını güman edib razılaşırlar. Nəticədə kimin atəş açdığını, kimin isə maşını idarə etdiyini müəyyən etmək mümkün olur və ittiham olunan şəxslər həqiqəti etiraf edirlər.

Bir sıra ölkələrdə psixofizioloji tədqiqatlar nəticəsində əldə edilmiş məlumatlar məhkəmələr tərəfindən sübut kimi qəbul edilmir. Fransada yalan detektoru məhkəmədə dəlil sayılmasa da, polisdə dindirmə zamanı istifadə edilir. Amerika Birləşmiş Ştatlarında poliqrafın istifadəsinə dair məhdudiyyətlər qüvvədə olsa da bu gün əksər əyalətlər ondan istifadə edir.

Günümüzdə bir çox şirkət və müəssisələrdə işçilərin vəzifə səlahiyyətlərini düzgün yerinə yetirib yetirmədiyini müəyyən etmək, dayələrin, şəxsi sürücülərin, cangüdənlərin, aşpazların nə qədər etibarlı, peşəkar, dürüst oduğunun müəyyən edilməsində poliqrafdan istifadə olunur.

*Hazırladı: Ruslan Vəliyev*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 50 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında test imtahanı aparılır.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış, Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2021-ci il noyabr ayının 27 - dən dekabr ayının 27 - dək **http://www.mia.gov.az** ünvanda yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- ***şəxsiyyət vəsiqəsi;***
- ***ali təhsil haqqında diplom;***
- ***hərbi bilet;***
- ***əmək kitabçası (olanlar üçün);***

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-93-51; (012)-590-97-42; (012) 590-92-37; (012) 590-92-21; (012) 590-93-64; (012) 590-95-23.**

# Toyların monitorinqi

15-21 dekabr tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 2045 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 2002 şadlıq sarayında, 43 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 49 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;
- 1 şadlıq sarayının sahibi İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə inzibati qaydada həbs edilib;
- 598 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

# Əməliyyat tədbirləri davam etdirilir



Daxili işlər orqanları tərəfindən qanunsuz saxlanılan silah-sursatın aşkar edilərək götürülməsi məqsədilə əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Əldə edilən məlumatlar əsasında polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində dekabrın 15-dən 21-dək respublikanın ayrı-ayrı rayonlarında vətəndaşlardan qanunsuz saxladıqları müxtəlif markalı ümumilikdə 85 ədəd ov tüfəngi götürülüb.

Polis əməkdaşları tərəfindən aparılan profilaktiki tədbirlər nəticəsində qanunsuz saxlanılan müxtəlif markalı 21 ədəd ov tüfəngi isə könüllü olaraq rayon polis şöbələrinə təhvil verilib.

Faktlar üzrə polis şöbələrində müvafiq araşdırmalar aparılır.

Daxili İşlər Nazirliyi vətəndaşlara müraciət edərək bildirir ki, əllərdə saxlanılan qanunsuz odlu silah-sursat könüllü olaraq hüquq mühafizə orqanlarına təhvil verilməlidir.

# Koronavirus xəstələri saxlanılıb



Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirlərini davam etdirirlər.

Dekabrın 15-dən 21-dək olan müddətdə polis əməkdaşları tərəfindən respublika ərazisində 50 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 13 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1-ci (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

*Natiq Cavadov*

## Dekabr ayının 15-dən 21-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 271 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 83 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 455, o cümlədən borclu şəxs qismində axtarışda olan 382 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 18 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 19 nəfər ölmüş, 7 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 96 fakt müəyyən edilmişdir.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30
Qiyməti 40 qəpik